# Pedaqoji ali məktəblərdə musiqi təhsilini təşkil etməyin əsas prinsipləri

**Zemfira Səlim qızı Sultanova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** zemfirasultanova52@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. N.N. Abutidze,
p.ü.f.d., dos. A.A. Hüseynova

**Açar sözlər:** mədəniyyət, musiqi, inkişaf, incəsənət, psixologiya
**Ключевые слова:** культура, музыка, развитие, искусство, психология
**Key words:** culture, music, development, art, psychology

Musiqi alətində çalmağın tədrisi, mürəkkəb və çoxşahəli prosesdir. O, təkcə şagirdlərin bir musiqi alətində çalmaq qabiliyyətini deyil, həmçinin ümumi musiqi inkişafını da özündə cəmləşdirir. Geniş tərbiyə işi də onun vacib bir elementdir. Öz müxtəlifliyi ilə bərabər o, şagirdin dünyagörüşünün və mənəviyyatının, xarakterinin, estetik zövq və musiqiyə məhəbbətin, əməyə marağın və nəhayət, sağlamlıq və fiziki inkişafının tərbiyə edilməsi kimi keyfiyyətləri özündə əks etdirir.

Tərbiyə işini tədris prosesinin əlavəsi kimi nəzərdən keçirmək olmaz. O, tədris işiylə vəhdət təşkil etməlidir. Tədrisin tərbiyəvi olmasına can atmaq lazımdır. Bu, metodikanın əsas prinsiplərindən biridir.

Tərbiyə işi məcburi olmamalıdır, çox hallarda hətta şagird onu hiss etməməlidir.

Tərbiyə işinin əsas hissəsi dərs prosesində həyata keçirilir. Bu zaman onun müxtəlif sahələrinə toxunmaq vacibliyi yaranır. Musiqi əsərlərinin bədii dərinliyinə bələd olan təcrübəli, savadlı müəllim onların obrazlarına, əsas mövzuların onlarda təcəssümünə, bəstəkarın estetik dünyagörüşünün təsvirinə və onun yaradıcılığının ruh aldığı ideallara da toxunacaq. Ü. Hacıbəyovun, F. Əmirovun və Şopenin odlu vətənpərvərliyi, Q. Qarayevin, A. Məlikovun və L. Bethovenin azadlıqsevər, mübariz ruhu, Motsartın, C. Haciyevin, T. Quliyevin işıqlı optimizmi, P.İ. Çaykovskinin, Niyazinin bəşəriyyətə olan ehtiraslı məhəbbəti və bu qəbildən olan başqa mövzulara da tədris repertuarının öyrənilməsi zamanı toxunulmalıdır. İncəsənətin bu hadisələrinə incəliklə yanaşılma şagirdə güclü tərbiyəvi təsir göstərə bilir.

Nümunə üçün, əsas problem - xalq musiqisinə məhəbbət oyatmaq və incəsənətdə xalq başlanğıcı rolunun aydınlığı problemi üzərində dayanaq.

Pedaqoq geniş dünyagörüşü ilə keçmişin və müasir dövrün ən görkəmli bəstəkarlarının xalq musiqisinə olan münasibətindən danışa bilər. Həmçinin o, bəstəkarların xalq musiqisi əsasında yaratdıqları əsərlərin xalqa mənsub olduğunu da qeyd edə bilər. Şagirdlə gündəlik çalışma prosesində bu məsələləri konkret nümunələri vasitəsilə açmaq vacibdir. Çaykovski, Raxmaninov, Prokofyev, Ü. Hacıbəyov, Q. Qarayev, F. Əmirov, T. Quliyev, və bir çox digər bəstəkarları pyeslərində mahnıların işlənməsi zamanı şagirdin diqqətini millilik cizgilərinə yönəltmək lazımdır. Bir tərəfdən xarakterli intonasiya dönməsini, digər tərəfdən isə düzümün səsaltı quruluşunu və lad özünə məxsusluğunu göstərmək olar. Qoy şagird işin məğzinə dərindən bələd olsun və bədii nəticədən zövq alsın. Sonradan hər hansı bir pyesdə musiqi dilinin xüsusiyyətlərinə rast gəldikdə, əvvəl deyilən sözləri əlavələrlə şagirdə xatırlatmaq, onda əv-

vəlki fikri genişləndirmək, inkişaf etdirmək arzuedilәndir.

Tərbiyəvi işin əsas forması şagirdlərə musiqi gecələri və konsertlər keçirtməkdir. Bu, iştirakçıların özlərinə hərtərəfli xeyir gətirir və incəsənətin təbliği üçün böyük əhəmiyyət daşıyır. Tərbiyə işinin (xüsusi) müxtəlif növlüyü - musiqi və ümumtəhsil məktəb şagirdləri ilə birlikdə incəsənətin müxtəlif mövzularına həsr olunmuş gecələrin keçirilməsidir.

Tərbiyə işində və musiqi təhsili olmayan uşaqlarda incəsənətə meyl, maraq oyatmaq fəaliyyətindən əlavə, belə axşamlar hər iki təhsil müəssisəsinin kollektivlərinin yaxınlaşmasına kömək göstərir. Bu tədbirlərin sayəsində xüsusi sinif müəllimi ümumtəhsil məktəblərinin müəllimləri ilə ümumi dil tapmaqda çətinlik çəkmir. Lakin, bu hal hər zaman həyata keçmir, belə ki, hərdən ümumtəhsil məktəb müəllimləri, uşağın musiqi məktəbində tədrisinin vacibliyini qiymətləndirmirlər.

Məktəb və peşə məktəblərinin həyatında əsas yeri sinif iclasları tutmalıdır. Onlar, müəllimə imkan verir ki, o, şagirdə təsir göstərmək üçün kollektiv formalardan istifadə etsin. Buraya, həm bəstəkarlar, həm musiqi, həm incəsənət, həmçinin ictimai həyat hadisələri haqqında söhbətlər, iştirakçıların həmin mövzuda məruzələri, müxtəlif əsərlərin ifası və onların müzakirəsi, ifa olunmuş ən yaxşı pyeslər üçün müsabiqələr daxildir.

Konsertlərə, teatrlara, muzeylərə getməyi, mədəni - tarixi yerlərə ekskursiyaları və şəhər kənarına gəzməyə getməyi haqlı olaraq tərbiyəvi işin ən yaxşı forması hesab edirlər. Bunları təkcə bütün siniflə deyil, həmçinin ayrı-ayrı şagirdlərlə də tez - tez keçirmək lazımdır. Tərbiyə işini hansı dərəcədə planlaşdırmaq və ümumiyyətlə ona hansı xüsusi hazırlıq görmək lazımdır?

Əlbəttə, sinif iclasları, müsabiqələr, muzeylərə getmək kimi tədbirlər əvvəlcədən nəzərə alınmalıdır: onlar həm də müəllimin hazırlıqlı olmasını tələb edir. Tədris prosesi zamanı keçirilən, qabaqcadan hazırlanmış tərbiyə işi ilə nə etməli? Bu zaman hər bir şagirdlə keçirilməli olan tərbiyə işinin əsas istiqamətini təsəvvür etmək lazımdır.

İxtisas sinfində aparılan tərbiyə işinin bəzi məsələləri üzərində ətraflı dayanaq.

İncəsənətə xüsusi münasibəti tərbiyə etmək vacib məsələdir: bu, şagirdin dünyagörüşünün formalaşmasında böyük rol oynayır. Bəzi ifaçılar üçün artist kimi inkişafın əsas stimulu – xudbinlikdir. Lakin bu yol düzgün yol deyil. Şagird təkcə öz şəxsi müvəffəqiyyəti barəsində düşünməməlidir. Xudbinlik pis məsləhətçi olaraq, insanı yanlış yola çəkir. Bütün fikirlərini “mən”ində toplayan sənətkar öz-özünü məhdudlaşdırır.

Şagirdi bu məhvedici yoldan çəkindirərək, müəllim ona həmin məqsədi göstərməlidir. O, incəsənəti insanlara verdiyi gözəlliyinə, müasir dövrdə əhəmiyyətli işləri həyata keçirmək üçün zəngin imkanlarına, yaradıcılıq əməyinin sevincinə görə qiymətləndirməyi bacarmalıdır. Gənc musiqiçinin özünü deyil, müəllifin öz traktovkasını deyil, sonra yaranacaq müvəffəqiyyəti deyil, ifanı sevməsi üçün müəllim bütün qüvvəsini məhz, bu məqsədə yönəltməlidir.

İncəsənətin ictimai rolunu başa düşməkdə şagirdə konsert çıxışları və məktəbdənkənar musiqi işi də kömək göstərir. Məhz professional hazırlıqsız auditoriya ilə ünsiyyət, onları bədii yaradıcılıq xəzinəsi ilə tanış etmək zövqü daha çox hissedici olur.

Gənc musiqiçinin parlaq bədii təəssürat alması vacib məsələdir. Ən yaxşı musiqiçilərin ifasında əsərləri eşitmək lazımdır. Şagirdlər tərəfindən ifa edilən əsərlərin musiqi gözəlliyinin açılmasından söhbət getdikdə, bəzi müəllimlər emosional cəhətdən sıxılırlar. Onlar bu sözləri deməyə utanır, ya da lazım bilmirlər: “Bu necə də gözəldir! Bu modulyasiya, bu yeni tonal cizgilər necə də gözəl səslənir! Bunları hiss et və elə çal ki, başqaları da valeh olsunlar!”. Dərs zamanı belə anların olması necə də vacibdir! Müəllimin, öyrənilən, ifa edilən əsərlərin gözəlliyinə canlı reaksiyası, şagirddə estetik hissin yaranmasına güclü təsir göstərə bilir.

Şagirdi estetik cəhətdən tərbiyələndirmək üçün onun nəzərini ədəbiyyat əsərinə, şəkillərə

və heykəllərə cəlb etmək lazımdır. Nahaq yerə List demirdi ki, "Rafael və Mikelancelo mənə Motsartı və Bethoventbaşa düşməyə kömək etdilər". Bu sözləri deməklə, dahi pianoçu incəsənətin müxtəlif sahələrində çalışan sənətkarların yaradıcılığındakı ümumi cəhətləri qeyd etməklə yanaşı, şagirdləri müxtəlif sahələrdəki gözəllikləri qiymətləndirməyə səy göstərmişdir.

Şagird müəllimlə birlikdə şəkillər qalereyasına getdikdə, belə, onda estetik zövq yaranır. Bu zaman o, bir şəkil qarşısında duraraq, ondan zövq alır və şəkildə təsvir olunan obrazı hiss edir.

Estetik hissin inkişafında təbiətin də rolu böyükdür. O, gözəlliyi hiss etməyi fəallaşdırır və təəssüratı zənginləşdirir.

Estetik tərbiyə, musiqiyə məhəbbət hissinin inkişafı ilə sıx bağlıdır. Təbiidir ki, məhəbbət yaxşı musiqiyə, bədii dəyəri olan musiqiyə olmalıdır.

**Məqalənin aktuallığı.** Musiqi mədəniyyətinin mənimsənilmə prosesində musiqiyə tələbat şəxsiyyətin inkişafı səviyyəsini xarakterizə edir.

**Məqalənin elmi yeniliyi.** Musiqi müəllimi ixtisasını seçən hər bir kəs musiqi maraqları və yaradıcılıq xüsusiyyətlərini daim təkmilləşdirərək inkişaf etdirilməlidir. Bu sənət cəmiyyətlə, onun mədəniyyəti və ideologiyası ilə sıx bağlı olaraq dəyişir, yeniləşir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Musiqi təliminin məqsədinin psixoloji əsaslandırılması şagirdin musiqi təcrübəsinin inkişafına, incəsənətə münasibətin yaranmasına və bütövlükdə şagirdin musiqi aləminə münasibətinə öz müsbət təsirini göstərir.

## Ədəbiyyat

1. Алексеев А.Д. Методика обучения игры на фортепиано. М., 1978.
2. Мазель А. Эстетика и анализ. М. «Советская музыка», 1966, № 12.
3. Сохор А.Н. Музыкальная культура общества. «Вопросы социологии и эстетики музыки», Л., 1980.

**З.С. Султанова**

## Основные принцины организации музыкального образования в педагогических ВУЗах

## Резюме

Систематическое получение знаний о музыке, формирование умений и навыков должны быть направлены прежде всего на развитие эмоциональной чувствительности, интереса детей к музыке. Особое значение имеет проблема заинтересованности в обучении музыке, которая также является одной из основных проблем общей педагогики.

**Z.S. Sultanova**

## Basic principles of organizing music education in pedagogical universites justification of the purpose of music education

## Summary

Systematic acquisition of knowledge about music, the formation of skills and habits

should be aimed primarily at the development of emotional sensitivity, children's interest in music. The problem of interest in the teaching of music is of particular importance, which is also one of the main problems of general pedagogy.

**Redaksiyaya daxil olub:** 05.08.2022